# Tarix yaradan partiya

YAP Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə keçirilən təsis konfransında yaradılmışdır. Bu hadisə mənim yaddaşımdadır. O dövrdə atam Babək rayonu üzrə Yeni Azərbaycan Partiyasının sədri seçilmişdi. Biz belə bir partiyanın yaranmasının vacibliyi haqqında danışırdıq.

O, deyirdi ki, 500-600-ə yaxın üzvümüz var. Mən də soruşdum ki, 500-600 üzvü olan partiya ilə nələrsə əldə etmək olarmı? Atamın sözü bu oldu ki, əgər onun başında Heydər Əliyev dayanırsa, bu partiya çox böyük işlər görəcək, üzvlərimizin sayı da artacaq, bunu görəcəksən. Artıq üzərindən otuz il keçib, həqiqətən də 500-600 üzvü olan bir partiya indi 800 minə yaxın üzvü olan böyük bir orduya çevrilibdir. Atamın o vaxt dilindən belə bir ifadə eşitdim: Heydər Əliyev dedi ki, bu partiya dünənin, bugünün və sabahın partiyası olacaq.

Dünyada saysız-hesabsız xalqlar yaşayır. Bu xalqları mən iki yerə bölərdim: tarix yaradan və tarix yazan xalqlar. Azərbaycan xalqı əsrlərboyu böyük tarix yaratmışdır. Təəssüflər olsun ki, yaratdığımız qədər tariximizi yazmamışıq.

Heydər Əliyev Azərbaycan mədəniyyətinin tarixinin, ədəbiyyatının yenidən yazılmasının təşəbbüsünü irəli sürdü. Bunlar çox yüksək səviyyədə icra olunurdu və anlayırdılar ki, Heydər Əliyev qədər Azərbaycan mədəniyyətinin tarixini, ədəbiyyatını bilən ikinci şəxs yoxdur və bu əsərlər elə yazılmalı idi ki, Ulu Öndər onu bəyənsin.

Başqa partiyalardan fərqli olaraq, bizim partiyamızın atacağı addımlardan ən vacibi Azərbaycanda siyasi sabitliyin yaradılmasına nail olmaq idi. O dövrdə Ermənistanla müharibə, daxili çəkişmələr, vətəndaş müharibəsi, hakimiyyət uğrunda mübarizələr Azərbaycanı məhvə doğru aparırdı. Qədirbilən xalqımızın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər qısa vaxtda ölkədə vəziyyəti sabitləşdirdi. Azərbaycanın çiçəklənmə dövrü başlandı. Azərbaycanda o qədər problemlər var idi ki, bunları ancaq və ancaq Heydər Əliyev həll edə bilərdi və etdi də.

Heydər Əliyev bilirdi ki, mədəniyyət hər bir xalqın güzgüsüdür və bunu yaşadan mədəniyyət xadimləridir. O dövrdə mədəniyyət xadimlərinin yaşayış tərzi çox acınacaqlı vəziyyətdə idi. Bir çoxları isə Azərbaycanı tərk etmişdi. Heydər Əliyev bütün sahələrə diqqət yetirdiyi kimi, mədəniyyətə də böyük diqqət yetirir, bu sahənin xadimləri ilə görüşlər keçirirdi. Onların bütün qayğılarını dinləyir, problemlərini öyrənirdi.

Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasına rəğbəti və məhəbbəti o qədər böyük oldu ki, həm prezident, həm də parlament seçkilərində YAP-ın üzvlərinə əksəriyyət səs verdi. Bu da Yeni Azərbaycan Partiyasına olan rəğbətdir, inamdır, etibardır.

Ulu Öndərimiz deyirdi ki, "mən ona özüm qədər inanıram". Bu şəxsiyyət Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. İlham Əliyev hakimiyyətə gələndən sonra Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirdi. Azərbaycanı dövlətlər arasında nüfuzlu bir dövlətə çevirdi.

İndi bütün dünya Azərbaycandan, Azərbaycanın hərbi gücündən, iqtisadi potensialından, dünyəvi dövlət olmağından danışır. İndi Azərbaycandan fəxrlə danışırıq. Azərbaycanın ərazi bütövlüyü tam təmin olunmuşdur və bunun da memarı Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir.

Yaşasın Yeni Azərbaycan Partiyası!

***Samir CƏFƏROV,***
***YAP-ın İdarə Heyətinin üzvü,***
***Xalq artisti***

Azərbaycan. - 2022.- 2 noyabr.- S.7.